Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

B. Suteyev





# "MİYO" eləyən kim idi?







Azərnəşr
1964

V. Suteyev



# “MİYO” eləyən KİM İDİ?



Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – 1964



Küçük divanın qabağındakı kilimin üstündə yatmışdı. Birdən o, yuxuda belə bir səs eşitdi:

**– Miyo!**

Küçük başını qaldırıb baxdı – heç kəsi görmədi.



Düşündü ki, yəqin yuxu görürmüş. Başını qoyub təzədən rahat-rahat yatdı.



Elə bu an yenə həmin səs eşidildi:

**– Miyo!**

– Kimsən?



Küçük dik atıldı, otağın hər yerinə baxdı. Çarpayının, mizin altına girdi, heç kəsi görmədi.





Tullanıb pəncərəyə çıxdı. Baxıb gördü ki, Xoruz həyətdə gəzir.

Öz-özünə dedi: “Hə, məni yatmağa qoymayan bu imiş!”

O, Xoruzun yanına qaçdı.

Küçük Xoruzdan soruşdu:

– „Miyo“ eləyən sən idin?

Xoruz qanadlarını çırpıb banladı və dedi:

– Yox, mən **quq-qulu-qu-u-u** eləyirəm!

Küçük soruşdu:

– Daha başqa bir şey bilmirsən?

Xoruz dedi:

– Yox, ancaq **„Quq-qu-lu-qu!“**





Küçük dal ayağı ilə qulağının ardını qaşıdı və evə yollandı...

Birdən, lap artırmanın yanında kim isə dedi:

**– Miyo!**

„O, burda gizlənib!“ – deyə Küçük tez pilləkənin altını qazımağa başladı.

Eşib çökəltdiyi yerdən balaca, boz Siçan atılıb çıxdı.





Küçük qəzəblə soruşdu:
– „Miyo“ eləyən sən idin?
Siçan ciyildədi:
– **Ciy-ciy!** Kim elə dedi?



– Kim isə „miyo“ elədi...
Siçan qorxa-qorxa soruşdu:
– Səs yaxından gəldi?
– Elə burdanca, lap yanımızdan.



– Mən qorxuram! **Ciy-ciy-ciy!.. –** Siçan ciyildədi. Qaçıb pilləkənin altına girdi.



Küçük fikrə getdi.

Birdən it damının yanından kim isə ucadan dedi:

**– Miyo!**

Küçük qaça-qaça üç dəfə it damının başına dolandı. Ancaq heç kəs yox idi. Bu vaxt damın içində nə isə tərpəndi...

„O burdadır! Mən bu saat onu tutaram!"– deyib, Küçük xəlvətcə damın qabağına getdi...





Bu vaxt tüklü, yekə bir Köpək onun üstünə atıldı. Köpək mırıldandı:

**– Mırr-mırr-mırr!**

Küçük quyruğunu qısıb yavaşcadan soruşdu.

– Mən... bilmək istədim ki...

**– Mırr-r!**

– Siz „miyo“ elədiniz?

– Nə?! Küçüyün biri küçük, məni ələ salırsan?!





Küçük dörd əl-ayaq da satın alıb özünü bağa saldı, bir kolun altında gizləndi.

Burda da, lap qulağının dibində kim isə dedi:

**– Miyo!**

Küçük kolun altından başını çıxarıb baxdı. Gördü ki, qabağındakı çiçəyin üstünə sarı bir Arı qonub.





Ürəyində dedi: „Miyo“ edən elə budur!“ – və onu qapmaq istədi.
Hirslənmiş Arı Küçüyün burnunun ucundan möhkəmcə sancdı:
**– Vız-z-z!..**
Küçük zingildəyə-zingildəyə götürüldü.



Arı isə ondan əl çəkmədi. Uça-uça vızıldadı:
**– Vız-z-z,** qaçdınız... Qurtara bilməzsiniz!..



Küçük özünü bir gölməçəyə yetirib suya atıldı.

O, başını sudan çıxaranda, Arı artıq uçub getmişdi. Birdən kim isə dedi:

**– Miyo!**

İslanmış Küçük yanındanca üzüb gedən Balıqdan soruşdu:

– „Miyo“ eləyən sən idin?





Balıq dinmədi, quyruğunu oynadıb suyun dərinliyinə cumdu. Zanbaq yarpağının üstündə oturmuş bir Qurbağa bunu görüb güldü:

– **Qur-r, qur-r!** Məgər bilmirsən balıqlar danışmırlar?

– Onda, bəlkə, „miyo“ eləyən sən idin? – deyə Küçük soruşdu.



Qurbağa yenə güldü:

– **Qur-r, qur-r!** Sən nə ağılsızsan! Qurbağalar ancaq quruldayırlar.

Sonra da suya tullandı...



Küçük suyu süzülə-süzülə evə qayıtdı. Burnu da yaman şişmişdi. O, divanın qabağındakı kilimin üstündə uzandı. Qanı çox qara idi. Birdən eşitdi:

**– Miyo!!!**





Küçük yenə sıçrayıb qalxdı. Pəncərədə tüklü Pişik oturmuşdu. Özü də zolaq-zolaq idi.



Pişik miyoldadı:
**– Miyo!**
Küçük hürdü:
**– Ham-ham!**
Sonra tüklü Köpəyin acıqlanmasını yadına salıb mırıldandı:
**– Mırr-r!**
Pişik belini qabardıb fısıldadı: **„Fıs-s!“**



Fıfıldayıb Küçüyə pəncə atdı: **„Fıf-f!“**



Sonra da pəncərədən bayıra tullandı.



Küçük qayıdıb öz yerində  kilimin üstündə uzandı. O, indi bilirdi ki, „miyo" eləyən kim idi.

Bərpa nəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 2 ç.v.
Sifariş 11
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin*
*kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS – A"